*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 01.07.2023*
*Kabul tarihi |Accepted: 20.07.2023*
*Yayın tarihi |Published : 25.08.2023*



**Aynur Novruzova**

*https://orcid.org/0000- 0002- 3850-199X*
*Head teacher of the Department of Azerbaijan and World Literature, Ganja State University, Doctor of Philosophy in Philology, Associate Professor, Azerbaijan, ashukurova@rambler.ru*

***Atıf Künyesi | Citation Info***
Novruzova, A. (2023). Heydər Əliyev və Gəncə Ədəbi Mühiti. *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 208-220.

# Heydər Əliyev və Gəncə Ədəbi Mühiti

***Xülasə***

*Ümumilli lider, görkəmli dövlət xadimi Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 35 il ərzində ictimai həyatın bütün sahələrində olduğu kimi çoxəsrlik tarixi olan ədəbiyyatımızın da tərəqqisi naminə müstəsna xidmətlər göstərmişdir. Onun əsasını qoyduğu humanitar siyasət mədəni-intellektual həyatın bütün sahə və istiqamətlərində böyük canlanma yaratdı. Uzaqgörən siyasətçi yaxşı bilirdi ki, hər bir xalqın daxili dünyasının ən güclü dayağı, gələcəyinin ən uğurlu təminatı özəyində böyük mənəviyyat dayanan ədəbiyyatıdır. Buna görə də o, milli dəyərlərimizin, maddi və mənəvi sərvətlərimizin böyük əhəmiyyətini yüksək qiymətləndirərək münbit bədii yaradıcılıq məkanı formalaşdırdı. Məqalədə ümumilli liderin mili düşüncənin, milli kimlik amilinin qorunub saxlanılmasında ədəbiyyatı başlıca faktor kimi dəyərləndirilməsi məsələlərindən bəhs olunur.*

*Araşdırmada həmçinin Gəncə ədəbi mühitinə H.Əliyevin diqqət və qayğısı onun ədəbiyyat siyasətində formalaşmış ənənələrin davamı kimi qiymətləndirilir.*

***Açar sözlər:*** *Heydər Əliyev, Gəncə, ədəbiyyat, mədəniyyət,siyasət, ədəbi mühit*

# Heydar Aliyev and Ganja Environment

***Abstract***

*National leader, prominent statesman Heydar Aliyev has rendered exceptional services for the progress of our literature, which has a centuries-old history, as well as in all spheres of public life, during the 35 years he led Azerbaijan. The humanitarian policy he founded created a great revival in all areas and directions of cultural-intellectual life. The far-seeing politician knew well that the strongest pillar of the inner world of every nation, the most successful guarantee of its future, is its literature, which has great spirituality at its core. Therefore, he highly valued the great importance of our national values, material and spiritual wealth, and formed a fertile artistic creative space.The article concerns the issues of evaluating literature as the main factor in preserving the national thought of the national leader and the factor of national identity. In the study, H. Aliyev's attention and concern for the literary environment of Ganja is evaluated as a continuation of the traditions formed in his literary policy.*

***Keywords:*** *Heydar Aliyev, Ganja, literature, culture, politics, literary environment.*

## Giriş

“Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətdir və intellektual mülkiyyətidir. Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xalqımıza birinci növbədə ədəbiyyatdan keçir”(Heydər Əliyev və mədəniyyət, 2008). Böyük azərbaycanlı, Ümummilli lider Heydər Əliyev ədəbiyyatımızın milli düşüncəmizin inkişafındakı böyük rolunu belə dəyərləndirirdi.

Ulu öndər qələm sahibləri ilə ənənəvi görüşlərində daim fikrinin əsas məntiqini ədəbiyyatın milli ruhu,təsir gücü ilə bağlayırdı: “Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı, şair sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür. Xalqımızı hansı yolla aparmaq, cəmiyyətimizdə olan nöqsanları aradan götürmək, cəmiyyəti təmizləmək, daha da saf etmək, ayrı-ayrı çirkin hallardan xilas etmək - bütün bunlarda ədəbiyyatın, bədii sözün imkanları da, gücü də, təsiri də çoxdur. Ona görə də siz yazıçı kimi, şair kimi tək öz istedadınızı ifadə etmirsiniz. Siz eyni zamanda millətə, xalqa, cəmiyyətə xidmət edirsiniz” (Heydər Əliyev və mədəniyyət, 2008). 60-cı illərin sonlarında Heydər Əliyev epoxasının

başladığı dövrdən Azərbaycan ədəbiyyatında novatorluq meylləri yarandı və bu meyllər məhz ulu öndərin dəstəyinə söykənərək dövrün və mövcud sistemin ağır sınaqlarından uğurla çıxa bildi. Çoxsaylı faktlar bir həqiqəti dönə-dönə təsdiqləyir ki, Heydər Əliyevin ədəbiyyata dəstəyi bu sahənin 60-cı illərdən üzü bəri davamlı tərəqqisində əvəzsiz rol oynayıb. Onun ədəbiyyata qayğısı konkret şəxslərdən başlayaraq genişlənmiş, son nəticədə yaradıcı mühiti bütövlükdə əhatə etmişdir.

"Heydər Əliyevin Azərbaycan ədəbiyyatı haqqında ifadə etdiyi konseptual fikirlər bir-birindən kəskin fərqlənən iki formasiya, iki quruluş, iki dövlətə rəhbərliyi dövründə ifadə olunmuşdur. Keçmiş ittifaq dövründə ədəbiyyat xalqı tanıtdırmaq işinə, xalqın mənəvi potensialının üzə çıxarılmasına xidmət edirdisə, müstəqillik dövründə də əvvəlki illərin nailiyyətlərini və böyük itkilərini, müsbət və mənfi cəhətlərini dərk etmək, ədəbi nümunələrə prinsipcə yenidən baxmaqla milli şüurun oyadılmasına və milli birlik ideyasına xidmət edirdi" (Məmmədova, 2014, s. 14).

Heydər Əliyev Sovetlər Birliyinin kifayət qədər güclü olduğu bir dövrdə ədəbiyyatımızın inkişafı və təbliği üçün tarixi missiyasını yorulmadan davam etdirirdi. Qələm sahibləri ilə canlı təmasda olur, yaradıcılıqlarına münasibətini bildirir, onları tariximizə, maddi və mənəvi dəyərlərimizə dair layiqli əsərlər yazmağa ruhlandırırdı. Obyektiv çətinliklərə baxmayaraq nəşriyyat və yaradıcılıq evləri açır, korifey sənətkarların yubileylərinin keçirilməsinə nail olur, "Ədəbiyyat qəzeti", "Qobustan", "Ulduz" jurnallarının dövlət büdcəsi hesabına dərc olunması, Azərbaycan Yazıçılar Birliyinin imkanlarının genişləndirilməsi kimi ədəbiyyatımızın tərəqqisi və inkişafı yönümündəki tarixi xidmətlərini həyata keçirirdi. Məhz Heydər Əliyevin misilsiz fəaliyyəti nəticəsində Azərbaycan Respublikası Sovetlər Birliyində tezliklə tanındı. Milli ənənələrin, dəyərlərin bərpası ilə bağlı uğurlu nəticələr əldə edildi. Təsadüfi deyildir ki, Heydər Əliyevin Azərbaycanı tanıtmaq üçün bütün mümkün imkanlardan istifadə etməsini maraqla izləyən əcnəbi tarixçilər Azərbaycanın SSRİ məkanında öz milli-mənəvi dəyərlərini qoruyub saxlayan yeganə respublika olduğunu etiraf edirdilər.

Ümummilli lider cəmiyyətdə ictimai şüurun sağlamlaşdırılmasında, mənəvi iflas probleminin aradan qaldırılmasında yaradıcı insanların müstəsna rolunu yüksək qiymətləndirərək qeyd edirdi**:** "Çoxəsrlik tariximizdə xalqlarımızı yaşadan, qoruyan və bugünkü günlərə gətirib çıxaran amillərdən biri, ola bilər ki, ən əsası, bizim mədəniyyətimiz, ədəbiyyatımız, deməli, şairlərimiz, yazıçılarımızdır" (Heydər Əliyev və mədəniyyət, 2008).

60-cı illərdən başlayaraq Ulu Öndərlə görüşlər, mükalimələr, yazıçıların qurultaylarındakı maraqlı çıxışlar, polemikalar dövlət müstəqilliyimizin bərpasından sonra da davam etdirildi. Heydər Əliyevin təşəbbüsçüsü olduğu bu görüşlər sadəcə rəsmiyyətçiliklə çərçivələnmirdi. Bu münasibətlərin mənbəyində əlbəttə ki, Ulu Öndərin ədəbiyyata ruhən bağlılığı dururdu. Ədəbiyyat onun daxili mənəvi dünyasının və apardığı böyük siyasətin dayağı idi. Bu yaddaqalan, tarixi görüşlərin canlı şahidi olmuş Gəncə ədəbi mühitində seçilən imzası olan, nasir, dramaturq, publisist Qərib Mehdinin təbirincə desək, Heydər Əliyev söz yaradıcılarına əqidə insanları kimi yanaşırdı.

Heydər Əlyev yazıçıların X qurultayındakı çıxışında qələm sahiblərinə münasibətindən bəhs edərkən göstərirdi ki, "...Biz yazıçıya insan qəlbinin mühəndisi deyirik. Bu adı doğrultmaq lazımdır. Yalnız o yazıçının insan zəkasına və qəlbinə təsir göstərmək kimi böyük mənəvi hüququ var ki, o, ictimai həyatda da, şəxsi davranışı ilə də öz oxucusuna doğurdan da nümunə ola bilir, yəni xalq qarşısında öz mənəvi məsuliyyətini bütün dərinliyi ilə dərk edir" (Heydər Əliyev və mədəniyyət, 2008).

Bu unudulmaz görüşlərdə Heydər Əliyevin Azərbaycan ədəbiyyatının şedevrlərini ərsəyə gətirən nadir istedad sahiblərini daim uca tutması, onlarla ünsiyyətdən böyük zövq alması ulu öndərin "cəmiyyətin aparıcı təbəqəsi, elitası" adlandırdığı yaradıcı insanlara qarşı səmimi, həssas münasibətinin göstəricisi idi. Ədəbiyyat aləmində dərin təsir buraxan bu əhəmiyyətli görüşlər yaradıcı insanları aktivləşdirərək, dövlətin siyasi-ideoloji işlərində də fəal olmalarına, qanunvericilik orqanı olan milli məclisdə söz sahibi olmalarına, həmçinin onlara ölkələr arasında mədəni əlaqələrin qurulması işinin təşkilində iştirak etmək hüququ verdi.

Ümummilli lider 70-80-ci illərdə həyata keçirdiyi tədbirlərin davamı olaraq müstəqillik illərində də Azərbaycan klassiklərinin yubileylərinin YUNESKO səviyyəsində qeyd olunmasına, əsərlərinin yüksək poliqrafik nəşrinə, ədəbi irsinin yenidən araşdırılmasına, təbliğinə, dünya dillərinə tərcüməsinə nail olur, abidələrini ucaltmaqla, ev muzeylərini yaratmaqla xatirələrini əbədiləşdirir, müstəsna xidmətləri olan yazıçı və şairlərin fərdi təqaüdlə təmin olunması , fəxri ad və ordenlərlə təltif olunması, mənzil şəraitlərinin yaxşılaşdırılması üçün böyük əhəmiyyətə malik qərarlar verdi. Onun ədəbiyyatımızın tərəqqisi naminə gördüyü irimiqyaslı işlər, həmçinin qurultaylarda və yubiley tədbirlərində ədəbi irsin milli düşüncə problemləri ilə bağlı dəyərli çıxışları və məruzələri nəhayət, ulu öndərin Azərbaycan Yazıçılar Birliyinin fəxri üzvü seçilməsinə əsas verdi. Ümumiyyətlə,

Azərbaycan Yazıçılar Birliyinin məhsuldar və uğurlu fəaliyyət dövrü məhz Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi parlaq tarixi dövrlərə təsadüf edir.

Heydər Əliyevin ədəbiyyatımızla bağlı çoxşaxəli fəaliyyətində mühüm yerlərdən birini də qədim dövlətçilik ənənələrinə, köklü mədəni dəyərlərə malik olan, dünya şöhrətli qələm sahibləri yetişdirən Gəncə ədəbi mühiti tuturdu. Qədim Gəncədə yetişən ədəbi simaların ədəbiyyat tariximizdəki yerini, mövqeyini yüksək dəyərləndirən Ulu öndər qeyd edirdi ki, "Dünyada hər bir xalq, millət öz tarixi, mədəniyyəti ilə, bəşər xəzinəsinə verdiyi töhfələrlə tanınır. Azərbaycan xalqı çoxminlik, çoxəsrlik tarixində bəşər mədəniyyətinə əvəzsiz, dəyərli töhfələr vermişdir. Bunda Gəncənin, gəncəlilərin xüsusi yeri var. Azərbaycan xalqının qədim tarixini, mədəniyyətini, ədəbiyyatını, şeirini Şərq aləmində, bütün dünyada Nizami Gəncəvi ilə tanıyırlar. Azərbaycana, Azərbaycan xalqına təkcə Nizami Gəncəvi kimi dahi bir şəxsiyyət bağışladığına görə Gəncə torpağı, Gəncə xalqı, gəncəlilər minnətdarlığa layiqdirlər" (Heydər Əliyev və Gəncə, 1999).

Heydər Əliyevin Gəncə ədəbi mühitinə çoxcəhətli yanaşmasının məğzini izah edən bu unudulmaz sözlərində böyük liderin Şeyx Nizaminin ədəbi irsinə olan böyük ehtiramı öz ifadəsini tapıb. Ümumiyyətlə, "Klassik ədəbiyyat, Heydər Əliyev üçün hər şeydən əvvəl, müasirliyi,konkret tarixi situasiyada xalqa mənəvi-mədəni xidmət göstərmək potensialı ilə maraqlı və aktual idi" (Heydər Əliyev və Azərbaycan ədəbiyyatı, 2009). Ulu Öndər hələ Sovetlər dönəmində Nizami Gəncəvi irsinin öyrənilməsinə və təbliğinə xüsusi önəm verirdi. 1970-ci ilin aprel ayında Gəncəyə tarixi səfəri zamanı Şəhər Partiya Komitəsində ictimaiyyətlə görüşən Azərbaycan KP MK-nin birinci katibi Heydər Əliyev burada həyata keçirilən infrastruktur layihələrlə yanaşı, şəhərin ədəbi-mədəni mühitilə də yaxından maraqlanır. Həmin iclasda Gəncə ədəbi mühitinin aparıcı simalarından biri, yazıçı, dramaturq, sonralar Heydər Əliyev tərəfindən ictimai və mədəni həyatdakı böyük xidmətlərinə görə əməkdar mədəniyyət işçisi fəxri adına, həmçinin prezident təqaüdünə layiq görülən Altay Məmmədov Nizami məqbərəsinin məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya qaldığını bildirərək, abidənin yenidən bərpa olunması təklifi ilə çıxış edir. Çıxışı böyük diqqət və maraqla dinləyən Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Elmlər Akademiyasının Tarix institutunda məqbərənin bərpası ilə bağlı müzakirələr aparılır. Müzakirədə məqbərənin yerinin dəyişdirilməsi, və yaxud bərpası ilə bağlı müxtəlif təkliflərlə çıxış edənlər də olur. O zaman ittifaq məkanında məqbərənin məhvinə səbəb olan Gəncə Gil-Torpaq (Alüminium) zavodunun yerinin dəyişdirilməsindən söhbət gedə bilməzdi. Heydər Əliyevin tapşırığı ilə məşhur nizamişünas alim, akademik Həmid Araslı və o zaman Azərbaycan Yazıçılar

İttifaqının birinci katibi İmran Qasımov Gəncəyə ezam olunurlar. Komissiya üzvlərinin məqbərənin köçürülməsi ilə bağlı müraciətlərinə baxmayaraq Heydər Əliyev bu məsələdə həssaslıq nümayiş etdirir. O, bildirdi ki, xalqın qəbul edə bilməyəcəyi hər hansı addım nə qədər zəruri olursa-olsun təqdir oluna bilməz, Buna görə də məqbərənin bərpası ilə bağlı məsələlər bir çox mərhələdən keçdikdən sonra, nəhayət şairin 840 illik yubileyi ilə bağlı verilən qərarlarda öz əksini tapır. Sonralar Heydər Əliyev bu tarixi məqamları belə xatırlayırdı**:** "Nizami Gəncəvinin qəbri üzərində vaxtilə bir məqbərə düzəlmişdi. Dahi şairin 850 illik yubileyi münasibətilə həmin məqbərə yenidən quruldu. Mən Gəncəyə gedəndə ona baxdım. O vaxt Gəncədəki alüminium zavodunda istehsal prosesi elə idi ki, onun tozu Nizaminin məqbərəsini bərbad hala qoyurdu. Xatirimdədir ki, Azərbaycanın görkəmli yazıçıları, mədəniyyət xadimləri həmin məqbərənin yerinin dəyişdirilməsi barədə mənə bir neçə dəfə müraciət etmişdilər. Mən bu barədə məktub da almışdım. O məktubu R. Rza, Q. Qarayev, İ. Qasımov, S. Rüstəm və bir çox başqaları imzalamışdılar. Doğrudan da, belə bir narahatçılıq var idi. O vaxt mən özüm də bir dəfə Gəncədə olanda gedib baxdım. Texnologiyanın aşağı səviyyədə olması üzündən alüminium zavodundan çıxan tozlar həqiqətən, o vaxt Gəncənin bu ərazisini bütünlüklə bürüyürdü. Hətta oradakı ağaclar, güllər də çox pis vəziyyətə düşürdü. Bu məsələ bir neçə il müzakirə olundu. Mən 70-ci illəri deyirəm. Ancaq mən düşünürdüm ki, əgər bu qəbir buradadırsa, bütün müharibələrə, hücumlara, qalibiyyətlərə, məğlubiyyətlərə, dəyişikliklərə baxmayaraq, 800 il burada qalıbsa, indi onun yerini dəyişdirmək olmaz. Ona görə də mən o vaxt bu fikrə razı olmadım. Nizami Gəncəvinin 840 illik yubileyini keçirəndə həmin məqbərənin yenidən qurulması haqqında qərar qəbul etdik. Bundan sonra Gəncə alüminium zavodunun istehsal texnologiyasında da bir çox dəyişikliklər əmələ gəldi, müəssisədən çıxan tozun qarşısı müəyyən miqdarda alındı" (Heydər Əliyev və mədəniyyət, 2008).

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK bürosunun 1978-ci il 1 noyabr tarixli iclasında "Nizami Gəncəvi irsinin yenidən öyrənilməsi və nəşri"qərara alınır. Ulu Öndərin Nizami irsinə qayğısı bununla məhdudlaşmır. Heydər Əliyevin böyük səyi nəticəsində MK-nin 1979-cu il 6 yanvar tarixli "Azərbaycanın böyük şairi Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında verdiyi qərar nizamişünaslıqda əsaslı dönüş yaradır. Qərar əsasında Azərbaycan Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutunda nizamişünaslıq şöbəsi yaradılır. Azərbaycan Elmlər Akademiyasında "Nizami komissiyası"t əşkil edilir. Komissiya qarşısında Nizami irsinin yenidən araşdırılma obyektinə çevrilməsi, dünyaya tanıdılması,

həmçinin məqbərənin yenidən bərpası məsələləri dururdu. Beləliklə, Heydər Əliyevin Nizami Gəncəvinin ədəbi irsi ilə bağlı həyata keçirdiyi tədbirlərin miqyası xeyli genişlənir. 1981-ci ilin 28 iyulunda Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyinin keçirilməsi haqqında qərar qəbul edilir. Heydər Əliyevin Nizami Gəncəvinin 840 illik yubileyinin keçirilməsi təşəbbüsünə etiraz edən Sovet İttifaqı MK-nın ikinci katibi M. Suslovun "bu tarix yuvarlaq deyil, ya 800, 850 , ya da 900 olmalıdır" fikirlərinə qarşı böyük liderin "Nizami Gəncəvi elə bir dahidir ki, onun nəinki 840 illiyini, onun yubileyini hər il keçirmək lazımdır" (Heydər Əliyev və mədəniyyət, 2008). kimi məntiqli cavabı qadağaların mövcud olduğu bir dövrdə onun öz xalqının mənəvi sərvətlərinə həssas münasibətinin adi qarşılanmadığını bir daha sübut edir. Heydər Əliyev qətiyyətli mövqe nümayiş etdirərək bu tarixi qərarın gerçəkləşməsinə nail olur. Bu qərarın uğurlu nəticəsi olaraq şairin vətənində - qədim Gəncə şəhərində silsilə tədbirlər gerçəkləşdirilir. Gəncədə dahi şairin adını daşıyan Zərrabi Poeziya teatrı, ev muzeyi tikilir, şairin əsərlərinin motivləri əsasında musiqi, rəsm, heykəltaraşlıq əsərləri yaradılır, həyat və yaradıcılığını əks etdirən bədii film çəkilir, ənənəvi poeziya günlərinə start verilir. Heydər Əliyevin dəstəyi ilə həyata keçirilən bu tədbirlər geniş miqyas alaraq Azərbaycanın hüdudlarından kənara çıxır. Leninqrad (indiki Sankt-Peterburq) şəhərində silsilə tədbirlər həyata keçirilir. Nizaminin əsərləri rus dilinə tərcümə edilərək Moskvada nəşr olunur. Heydər Əliyev həmin ildə "Pravda" qəzetində Nizami Gəncəvinin ümumbəşəri mahiyyət daşıyan yaradıcılığını səciyyələndirən geniş məzmunlu məqalə ilə çıxış edir.

Ümummmilli lider sonralar bu ədəbi hadisəni belə xatırlayacaqdı:"Moskvada işlədiyim dövrdə Nizami Gəncəvinin ''Xəmsə"sinə daxil olan əsərlərin rus dilində ayrı-ayrılıqda nəşr olunmasına nəzarət edirdim. Nizaminin əsərlərini böyük çətinliklə Moskvada ''Xudojestvennaya literatura" nəşriyyatında çox nəfis şəkildə nəşr edilməsinə nail oldum.Sonrakar mən Bakıya gələrkən Nizami muzeyinə getdim və gördüm ki, şairin beş əsərinin hamısı orada nümayiş etdirilir" (Heydər Əliyev və mədəniyyət, 2008).

Heydər Əliyev yaradıcılığını dünya klassik ədəbiyyatının ən yüksək dəyərləri sırasında gördüyü Nizami irsinə olan həssas mövqeyini hakimiyyətə yenidən qayıdışında, müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrdə də dəyişmədən davam etdirdi. Onun milli dəyərlərimizin inkişafı və təbliği sahəsindəki bu təkzibolunmaz xidmətləri Azərbaycan xalqının tarixi taleyində, dünya miqyasında tanınmasında müstəsna rol oynadı. Heydər Əliyevin Nizami irsinin araşdırılması və təbliği sahəsində həyata keçirdiyi möhtəşəm tədbirlərdən daha bir maraqlı nümunə: 1997-ci ilin iyulunda ABŞ-a rəsmi səfəri zamanı Ümummilli lider dünyanın

tanınmış ali təhsil müəssisələrindən biri olan Corctaun Universitetinə Nizami Gəncəvinin barelyefini hədiyyə edir. Çıxışı zamanı ulu öndər həmişə olduğu kimi bu dəfə də böyük Nizaminin ədəbi irsini Şərq və Qərb sivilizasiyasının ən möhtəşəm abidəsi kimi dəyərləndirərək Qərb oxucusuna şairin əsərlərinin bəşəriyyət üçün mənəvi gida mənbəyi olduğunu xatırladır.Azərbaycan Respublikası prezidenti Heydər Əliyevin 1998-ci il 30 mart tarixli sərəncamı ilə ‘’Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi şair və mütəfəkkir Nizami Gəncəvinin xatirəsini əbədiləşdirmək” qərara alınır. Sərəncama əsasən irimiqyaslı layihələr həyata keçirilir. V. Muxina adına Leninqrad Ali Rəssamlıq məktəbinin məzunu Görüş Babayevin müəllifi olduğu Nizami Gəncəvi abidəsi 2002-ci il iyunun 9-da Sankt-Peterburq şəhərində ucaldılır.Açılış mərasimində Heydər Əliyev şəxsən iştirak edir və Nizami obrazını Azərbaycan xalqının Sankt-Peterburqa hədiyyəsi kimi dəyərləndirir. Sonralar Azərbaycan ədəbiyyatının inkişafı və təbliğində Ulu Öndərin prinsiplərini uğurla həyata keçirən və bu sahədə nailiyyətlərə imza atan Heydər Əliyev fondunun təşəbbüsü ilə Sankt-Peterburda Nizaminin adını daşıyan bağın açılışı, həmçinin, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2011-ci ildə şairin 870 illik yubileyinin təntənəli şəkildə keçirilməsi ilə bağlı verdiyi tarixi sərəncam da Ümummilli liderin təməlini qoyduğu ənənələrin möhtəşəm davamı idi.

80-ci illərdə dahi Nizaminin 840 illik yubileyi ilə əlaqədar Gəncədə səfərdə olan Heydər Əliyev tarixi memarlıq abidəsi olan karvansara kompleksində təşkil olunmuş klassik sənətkarların yaradıcılığından bəhs edən elmi və bədii əsərlərdən ibarət sərgidə iştirak edir. Orta əsrlər Gəncə ədəbi mühitinin parlaq nümayəndələrindən biri sayılan, incə rübailər ustası Məhsəti Gəncəvinin yaradıcılığını əks etdirən guşəyə xüsusi diqqət ayıran Ulu Öndər şairin Azərbaycan poetik fikrindəki bənzərsiz mövqeyindən bəhs edir. Xatırladaq ki, Azərbaycan KP MK-nin 11 iyul 1977-ci il tarixli qərarı ilə Gəncə (o zamankı Kirovabad) Pedaqoji Texnikumuna Məhsəti Gəncəvinin adı verilmişdi. Mövcud quruluşun şərtləri altında atılan bu cəsarətli addım Heydər Əliyevin Məhsəti irsinə böyük diqqət yetirdiyinin sübutu idi.

Beləliklə, Heydər Əliyev “...Məhsəti xanımın çox zəngin ədəbi irsi müfəssəl və elmi surətdə dərindən tədqiq olunmalı və geniş istifadə edilməlidir” (Heydər Əliyev və Gəncə, 1999). fikrini vurğulamaqla ədəbi ictimaiyyətin diqqətini şairənin yaradıcılıq dünyasına bütövlükdə nəzər salmağa, irsini yenidən öyrənməyə yönəldir. Onun Məhsəti Gəncəvinin yaradıcılığı ilə bağlı maraqlı mülahizələri, dəyərləndirici qənaətlərinin nəticəsi olaraq 80-ci illərdən etibarən şairənin həyat və yaradıcılığını əks etdirən elmi, ədəbi-mədəni örnəklər meydana çıxır. 1983-cü ildə şairin heykəltaraş Münəvvər Rzayevanın müəllifi olduğu bürünc

abidəsi Gəncənin ən görkəmli yerlərindən birində, hal-hazırda ulu öndərin adını daşıyan parkda ucaldılır.1984-cü ildə şairənin həyat və yaradıcılığını sistemli şəkildə araşdıran Gəncə Dövlət Universitetinin professoru, filologiya elmləri doktoru, əməkdar elm xadimi, görkəmli nizamişünas Xəlil Yusiflinin "Məhsəti Gəncəvi" monoqrafiyası şairənin 190-a qədər rübaisinin əruzla tərcüməsi əlavə edilməklə çapdan çıxır. Xatırladaq ki, şairənin rübailərini 1965-70-ci illərdə farscadan dilimizə onun həmyerlisi Nigar xanım Rəfibəyli tərcümə etmişdi. Heydər Əliyevin klassik ədəbi irsimizin öyrənilməsi və təbliği ilə bağlı əsasını qoyduğu humanitar siyasətin bugünkü davamı olaraq 2013-cü ildə Məhsəti Gəncəvinin yaradıcılığının 900 illik yubileyi YUNESKO-nun görkəmli şəxsiyyətlərin yubileylərinin qeyd olunması proqramına daxil edilib. Yubileyin beynəlxalq səviyyədə qeyd edilməsi qərara alınıb.

Heydər Əliyev klassiklərin yubileylərinin keçirilməsini, adlarının əbədiləşdirilməsini, əsərlərinin nəşrini adi hadisədən çox siyasi, milli, mənəvi əhəmiyyət kəsb edən böyük ictimai hadisəyə çevrilməsinə nail olurdu. Azərbaycan yazıçılarının VII qurultayında çıxış edən görkəmli yazıçı İ.Şıxlının:"Heydər Əliyev yoldaşın bizə, Azərbaycan yazıçılarına, klassik irsimizə xüsusi qayğı ilə yanaşması, Nizami, Mirzə Şəfi irsinin öyrənilməsinə, Nəsimi, S.Vurğun kimi sənət ustalarımızın geniş yubileylərinin keçirilməsinə xüsusi əhəmiyyət verməsi bizi sevindirməyə bilməz. Heydər Əliyev yoldaş düz bir həftədir ki, böyük dövlət və təsərrüfat işlərindən ayrılıb ancaq bizlə-yazıçılarla məşğul olur, desəm mübaliğəyə yol vermiş olmaram ''fikirlərinə Heydər Əliyevin" əgər həqiqəti bilmək istəsəniz qəlbimdə həmişə bu işlə məşğul olmuşam"cavabı onun ədəbiyyata və onu yaradanlara verdiyi böyük dəyərin bariz nümunəsidir.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK 8 iyun 1981-ci il tarixdə lirik şair, yaradıcılığı maraqlı və qiymətli faktlarla zəngin olan, xalq arasında"Gəncəli müdrik"kimi tanınan Mirzə Şəfi Vazehin irsinin tədqiqi və təbliği ilə bağlı qərar qəbul edir. Heydər Əliyev gəncəli mütəfəkkirin ədəbi irsinin dərindən öyrənilib araşdırılmasını və yeni faktların üzə çıxarılmasını ədəbiyyatşünaslar qarşısında bir vəzifə olaraq irəli sürür. Təbii ki, M. Ş. Vazehin ədəbi-ictimai fəaliyyətinə verdiyi bu dəyər onun bütövlükdə Gəncə ədəbi mühitinə doğma münasibətinin təsdiqi idi. Bu münasibətin təməlində şübhəsiz ki, klassik ədəbiyyatımızın dərk olunmasına, dünya çapında təbliğinə və milli mənəviyyatımızın genetik kodeksinə çevrilməsinə böyük öndərin duyduğu və duyurmaq istədiyi zərurət dayanırdı. Ulu öndər yaxşı bilirdi ki, Azərbaycan ədəbiyyatının inkişafı üçün ən mühüm şərtlərdən biri dünya ədəbiyyatı ilə mübadilənin qurulması ədəbi nümunələrin dünya dillərinə tərcümə olunmasıdır. Bu baxımdan Heydər Əliyevin şeirləri bütün Avropanı fəth edən, fransız, ingilis, alman, isveç,

holland, danimarka, ispan, portuqal, rus, çex, macar, yəhudi dillərində nəşr olunan, hətta haqqında operetta “Die lideq des Miqza Şshaffu” yazılan Mirzə Şəfi yaradıcılığına diqqəti səbəbsiz deyildi.

Qərardan sonra şairin ədəbi irsi yenidən araşdırılır, əsərləri nəşr olunur. Mirzə Şəfinin ədəbi irsi və fəaliyyəti ilə bağlı silsilə tədbirlərin ən yaddaqalanı isə şairin abidəsinin Gəncədə ucaldılması ilə bağlı olur. 1981-ci ilin iyulunda heykəltaraş Şərif Şərifovun (memar L.Rüstəmov) müəllifi olduğu “Mirzə Şəfi və onun müasirləri” adlı abidə kompleksinin açılışında iştirak edən Heydər Əliyev maarifpərvər şairin yaradıcılığını Azərbaycan xalqının dünya mədəniyyətinə bəxş etdiyi ən böyük töhfələrdən biri kimi dəyərləndirərək, görülən işlərin miqyasının genişləndirilməsi ilə bağlı maraqlı tövsiyələrini verir. 1981-ci ilin avqustunda şairin xatirəsini əbədiləşdirmək məqsədi ilə növbəti möhtəşəm abidə (heykəltaraş Görüş Babayev) Gəncənin ən maraqlı guşələrindən birində, indiki Heydər Əliyev parkında ucaldılır. Bu gün maarifpərvər şairin 220 illik yubileyinin qeyd olunması ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 3 fevral 2014-cü il tarixdə imzaladığı sərəncam Ümummilli liderin ədəbi irsə qayğısının uğurlu davamıdır.

Heydər Əliyevin Gəncə ədəbi mühitinin tədqiqi və təbliği sahəsindəki ən başlıca xidmətlərindən biri də istedadlı lirika ustası Nigar xanım Rəfibəylinin adı ilə bağlıdır. Xatırladaq ki, 1973-cü ildə mövcud rejim tərəfindən uzun illər repressiyalara, təqiblərə məruz qalan Nigar Rəfibəylinin anadan olmasının 60 illik yubileyi məhz Heydər Əliyevin qayğısı və yaxından iştirakı ilə təntənəli şəkildə qeyd edilmişdi. N. Rəfibəylinin yaradıcılığını Azərbaycan xalqının mənəvi sərvəti kimi xarakterizə edən Ümummilli lider 1981-ci il 18 iyul tarixli qərara əsasən onu ‘’Xalq şairi” fəxri adı ilə təltif edir. Nəhayət, 1998-ci ilin oktyabr ayında Gəncənin görkəmli yerlərindən biri sayılan Sərdar bağında şairənin monumental bürünc abidəsi ucaldılır (heykəltaraş Münəvvər Rzayeva Fəxrəddin Əliyevlə birgə). Abidənin açılışında iştirak edən Heydər Əliyev Nigar Rəfibəylinin bədii yaradıcılığının humanist mahiyyətini yüksək dəyərləndirərək, onun ədəbiyyatımızın tərəqqisi üçün böyük əhəmiyyətini xüsusi vurğulayır:

“...İyirminci illərin repressiyalarında, otuzuncu illərin repressiyalarında çox dəyərli gəncəlilər-zilalılar məhv edilmişdir. Onlardan biri də Nigar xanımın atası Xudadat bəy Rəfibəyli-Azərbaycanın ilk müstəqil hökumətində, Xalq Cumhuriyyətində nazir vəzifəsini tutmuş bir insan, sonra repressiya qurbanı olmuşdur. Ancaq tarix hər şeyi öz yerinə qoyur. Repressiya qurbanı olmuş Xudadat bəy Rəfibəylinin qızı Nigar xanım Rəfibəyli böyük bir yol keçmiş, Azərbaycan mədəniyyətinin inkişaf etməsi uğrunda çalışmışdır. O, öz həyat yoldaşı

Azərbaycanın böyük şairi Rəsul Rza ilə birlikdə Azərbaycan ədəbiyyatının yüksəlməsində xüsusi rol oynamışdır və məmnunam ki, onların övladı, Azərbaycanın böyük yazıçısı, Yazıçılar Birliyinin sədri hörmətli Anar da əcdadlarının, anasının, atasının işini davam etdirir və Azərbaycan ədəbiyyatının, mədəniyyətinin inkişafına öz xidmətlərini göstərir. Görürsünüz Gəncə nə qədər böyük insanlar yetişdirir. Bir ailədə üç xalq yazıçısı – R. Rza, N. Rəfibəyli, Anar" (Heydər Əliyev və Gəncə, 1999).

Heydər Əliyevin Gəncə ədəbi mühitində müstəqil epoxa yaratmış klassiklərin yaradıcılığına böyük diqqət yetirdiyini təsdiq edən daha bir neçə faktı yada salaq. Ulu öndərin bilavasitə təşəbbüsü və göstərişi ilə 1978-ci ildə məşhur mollanəsrəddinçi şair, ədəbiyyatşünas, tərcüməçi Əli Nəzminin anadan olmasının 100 illik yubileyi təntənə ilə qeyd edilir. 25 mart 1978-ci il tarixli qərarla görkəmli nasir, ədəbiyyatşünas alim Mir Cəlal "Oktyabr İnqilabı"ordeni ilə təltif edilir.Azərbaycan KP MK bürosunun 3 aprel 1979-cu il tarixli iclasında yazıçının xatirəsini əbədiləşdirmək haqqında qərar qəbul edilir. 1979-cu il 25 may tarixli iclasda isə Azərbaycan romantizminin qüdrətli nümayəndələrindən biri, 20-ci illərdə Gəncədə yazıb-yaradan Məhəmməd Hadinin anadan olmasının 100 illiyinin keçirilməsi barədə qərar qəbul edilir. Heydər Əliyev hər üç sənətkarın əsərlərinin nəşrinə, səhnələşdirilməsinə, irslərinin təbliğinə nail olur, adlarına küçələr, məktəblər verməklə unudulmalarına imkan vermir.

Akademik İ. Həbibbəyli ulu öndərin ədəbiyyatımızın müasirlik meyarları ilə inkişafına münasibətini belə izah edir: Böyük siyasətçinin nəzərində müasirlik geniş miqyaslı bir kateqoriya kimi həm çağdaş həyatın ədəbiyyatda əks etdirilməsi, həm də müasir düşüncənin, yeni təfəkkürün ədəbiyyata gətirilməsi vəzifələrini əhatə edir. Ona görə də Heydər Əliyev həmişə "öz dövrünü tam dolğunluğu ilə göstərməyin, ictimai inkişafın dialektikasını bədii formada canlandırmağın, onun ən mühüm meyillərini və qanunauyğunluqlarını açmağın necə məsul vəzifə olduğunu hər bir sənətkarın dərk etməsi çox böyük vəzifədir" qənaətində olmuşdur. Onun fikrincə, müasir həyatdan söz açan əsl sənətkar ötəri, keçəri meyilləri deyil, "ictimai inkişafın müqəddəratını müəyyən edən prosesləri və hadisələri ilk növbədə təsvir etməlidir" (Həbibbəyli, 2010, s. 4).

Bu gün Heydər Əliyevin əsasını qoyduğu humanitar siyasət Gəncə şəhərinin ədəbi irsnin qorunması, dünya miqyasında təbliği sahəsində nailiyyətlər qazanması üçün geniş imkanlar açır və bu sahənin davamlı inkişaf dinamikasını təmin edən addımların atılmasına şərait yaradır.Ulu öndərin Gəncə ədəbi mühitinin inkişafı üçün hər cür şəraitin yaradılması istiqamətində həyata keçirdiyi nəhəng tədbirlər bu gün də əzmlə davam etdirilir. Gəncənin bir

qrup ədəbiyyat xadimlərinin dövlət mükafatları, fəxri adlar və prezident təqaüdünə layiq görülməsi Heydər Əliyev ənənələrinin davamıdır. Ədəbi prosesdə yeni cığırlar, yeni formalar yaradan Gəncə ədəbi mühitinin çağdaş nümayəndələri istər bədii (Sədnik Paşa Pirsultanlı ”Milləttac”, ‘’Qayıt vətən oğlu, vətənə qayıt”, “Aydın Murovdağlı” Alın yazısı”,“Ali baş komandanım”, ‘’Xəzangül” Sən tanrının adısan”,”Qoşa ulduz”, ‘’Öyrət insanlara”, “Sən Tanrının adısan”, “Heydərin məzarı önündə”, Aləmzər”Dahi rəhbər”, Rəna Teymurqızı “Heydər baba”və b.), istərsə də publisistik Rəfiqə Sadıqova” Ümummili lider H. Əliyev həmişə gəncəlilərin qəlbindədir”, ‘’Xilaskar”, “H. Əliyev müasir Azərbaycanın xilaskarı və qurucusudur”, Xəzangül “Uca həqiqətin işığı”, “H. Əliyev və Azərbaycan ədəbiyyatı”, “Millətin gələcəyi”və b.) yazılarında ulu öndərin ədəbiyyatımızın inkişafı naminə həyata keçirdiyi missiyanı yüksək dəyərləndirərək minnətdarlıq duyğusu ilə ona öz yaradıcılıqlarında layiqli yer verirlər.

**Nəticə**

Heydər Əliyevin ədəbiyyat siyasətinin əsası Sovet hakimiyyəti illərində-onun Azərbaycana rəhbərlik etdiyi dönəmlərdə qoyulmuşdu. Ümummmilli lider senzuraların, ideoloji çərçivələrin mövcud olduğu bir mühitdə dilə gətirilməsi qeyri-mümkün olan bədii həqiqəti yaradan və onun inandırma gücünü təmin edə bilən qələm sahiblərinə dayaq olur, onları müdafiə edir, təqiblərdən qoruyurdu. Heydər Əliyevin ədəbiyyat konsepsiyasının təməlində milli ideologiya dayanırdı. Ona görə də böyük lider ədəbi proseslərə məhz milli inkişafımızın maraqları prizmasından yanaşırdı. O, mənsub olduğu millətin mənəvi-mədəni dəyərlərinin bilavasitə daşıyıcısı olduğundan bütün sahələrdə, o cümlədən ədəbiyyatımızda da milli ruhun, milli düşüncənin gücləndirilməsinə və qorunub saxlanılmasına çalışırdı.

Heydər Əliyevin ədəbi siyasəti təkcə yaradıcı insanlara dəstək və qayğı ilə məhdudlaşmırdı. O, ensiklopedik zəkaya malik bir şəxsiyyət kimi ədəbi faktları dərhal dəyərləndirir, hansı formada olursa –olsun ədəbi-estetik fikirdə baş verən prosesləri nəzərdən qaçırmır, yeniliklərə münasibətini bildirirdi.Beləliklə, də məhz Heydər Əliyevin qayğıkeş münasibəti bədii sənət ustalarının istedadının məhsulu olan neçə-neçə əsərlərin taleyində də həlledici rol oynadı.

**Ədəbiyyat**

*Heydər Əliyev və mədəniyyət*. (2008). Sov. İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, Azərbaycan KP MK-nın Birinci katibi H. Ə. Əliyevin Respublika yazıçılarının VII qurultayındakı nitqindən. 12 iyun 1981-ci il. (3 cilddə). (I cild). Elm.

*Heydər Əliyev və mədəniyyət*. (2008). Azərbaycan Yazıçılarının X qurultayındakı nitqindən 30 oktyabr 1997-ci il. (3 cilddə). (II cild). Elm.

Heydər Əliyev və Gəncə. (1999). *Azərbaycan Respublikası Prezidentliyinə namizəd Heydər Əliyevin Gəncə seçiciləri ilə görüşdəki çıxışından.* 7 oktyabr 1998-ci il, Qərb.

*Heydər Əliyev və Azərbaycan ədəbiyyatı.(*2009). Şərq-Qərb.

Həbibbəyli, İ. (2010). *Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr*. Azərbaycan.

Məmmədova, Ş. (2014). Heydər Əliyev və Azərbaycan ədəbiyyatı məsələləri. Filolog.üz.fəl.dok.elmi dər.al.üçün təqdim olunmuş dissertasiyanın avtoreferatı. http://www/aak/gov/az/avtoref to mudaf/pdf to medaf/filol/filol n msa 13 12 14/pdf